# Müəllimlərimizin keyfiyyəti əsaslı şəkildə artıb

## Emin Əmrullayev Real TV-nin "Vacib sual" verilişinin qonağı olub




Elm və təhsil naziri Emin Əmrullayev Real TV-də yayımlanan "Vacib sual" verilişində qonaq olub. Veriliş zamanı nazir məktəbəqədər təhsilin əhatəliliyinin artırılması, "Tam orta məktəb" layihəsinin icrası, peşə təhsilinin inkişafı, əmək bazarının tələblərinə uyğun ixtisasların formalaşdırılması, eləcə də 2026-cı il üçün müəyyənləşdirilən hədəflər və digər aktual mövzular barədə fikirlərini bölüşüb.

### Rəqabət olan yerdə inkişaf da olur

■ Mən inanıram ki, bizim son 10 ildə müəllimlərimizin keyfiyyəti əsaslı şəkildə artıb. Bu, həm diaqnostika, həm sertifikatlaşdırma prosesində, həm də ən vacibi işə qəbul olan müəllimlərimizin keyfiyyətində görünür. Yəni bizim yüzlərlə dil və ədəbiyyat, riyaziyyat, tarix, biologiya müəllimimiz var ki, onlar qəbul imtahanlarında 500-dən çox bal toplayıblar... İndi daha rəqabətli bir iş yerindən danışılır. Rəqabət olan yerdə inkişaf da olur. Yeni nəsil müəllimlərimizin səviyyəsi sertifikatlaşdırma nəticələrində də görünür. Son 5 ildə işə qəbul olunan müəllimlərin sertifikatlaşdırma imtahanındakı orta nəticəsi 25 il və daha çox pedaqoji stajı olan müəllimlərin orta nəticəsindən yüksək olub. Bu da nəticəni aydın şəkildə göstərir.

### Distant təhsil məsələsi gündəmə gələcək

■ Distant təhsil məsələsi gündəmə gələcək. Çünki biz ona səmərəlilik – planlaşdırma xərcləri və prosesin rahatlığı baxımından baxırıq. Eyni zamanda, uşaqların, müəllimin öz kəndindən, yaşadığı məntəqədən uzaqlaşmadan distant təhsilinin mümkün olub-olmaması məsələsinə nəzər yetiririk. Bu model mümkündür və icra olunacaq. Bu model gündəmdədir və düşünürəm ki, növbəti tədris ilindən belə bir pilot model tətbiq olunacaq. Yəni uşaqları daşımadan, onların öz yaşadıqları ərazidə bu modelin tətbiqi nəzərdə tutulur. Dünyanın bir çox yerlərində də bu model artıq tətbiq olunur. Çox yaxşı xəbər odur ki, hazırda demək olar ki, bütün yaşayış məntəqələrimizdə məktəblər fiber-optik internetlə təmin olunub. Eyni zamanda, müvafiq avadanlıqlarla təchizat məsələsini də həll etsək – inanırıq ki, növbəti təqvim ilində bunu həll edəcəyik – növbəti tədris ilindən etibarən bu modelin tətbiqini planlaşdıra biləcəyik.

### Qarabağ Universitetində yeni ixtisaslar və fakültələr açılacaq

■ Növbəti ildə Qarabağ Universitetinə 1200-1500 tələbənin qəbulu planlaşdırılır. Yeni ixtisaslar və yeni fakültələr açılacaq. Sonrakı mərhələdə müəllimlik ixtisaslarının sayı artırıla bilər. Eyni zamanda, kompüter elmləri, informasiya texnologiyaları və digər sahələr üzrə ixtisasların da açılması nəzərdə tutulur. Artıq beynəlxalq proqramların da həyata keçirilməsi planlaşdırılır və əcnəbi tələbələrin qəbulu gözlənilir. Peşə məktəbləri ilə bağlı da planlarımız var. Qarabağ Universiteti ilə əlaqədar olaraq bir neçə binanın tikintisi artıq başa çatıb və istifadəyə veriləcək. Şuşa şəhərində universitetin Musiqi və incəsənət fakültəsinin də yerləşdirilməsi də planlaşdırılır.

### "Tam orta təhsil" layihəsi ali məktəbə hazırlığı təmin edir

■ Pilot layihə kimi tətbiq olunan "Tam orta təhsil" layihəsi 10-11-ci siniflərdə ali məktəbə hazırlığı təmin edir. Pilot olaraq bir neçə bölgədə fəaliyyətinə başlayıb. Bu gün cəmiyyətimizdə ali təhsil almaq bəzən məqsəd yox, bir status simvoluna çevrilib. Hər kəs elə düşünür ki, mütləq ali təhsil almalıdır. Yanvar-fevral aylarında isə bu yeni model üzrə daha geniş ictimai təqdimatın olması planlaşdırılır.

### Peşə təhsilində həm keyfiyyət, həm də kəmiyyət dəyişikliyi

■ Peşə təhsili sahəsində həm keyfiyyət, həm də kəmiyyət dəyişikliyi baş verir. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 21 peşə təhsili müəssisənin tikintisi, ikisinin isə əsaslı təmiri nəzərdə tutulub. 2030-cu ilədək mövcud peşə təhsili müəssisələri ilə birlikdə 50 müasir peşə təhsili müəssisəsi olarsa, bu, Azərbaycanın müstəqillik tarixində ilk dəfə belə bir infrastrukturun formalaşması demək olacaq.